# "Memarlıq və Şəhərsalma İli"

2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları karvansaralar məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini özündə birləşdirir.

Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələrini əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən Müharibəsindəki zəfərin ardınca Prezident İlham Əliyevin sərəncamı əsasında İnnovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdar kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı (“UN-Habitat”) ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir.



Azərbaycan son illərdə şəhərsalma və memarlıq sahəsində ciddi uğurlar əldə etmişdir. Biz bunların hər birini Prezident İlham Əliyevin çıxışlarında da daha aydın şəkildə görürük. İşğaldan azad edilmiş ərazilərimizdə həm “ağıllı şəhər”, həm də “ağıllı kənd” prinsiplərinə uyğun olaraq yaşayış məntəqələrinin bərpası və inkişafı həyata keçirilir. Praktik olaraq, Qarabağ və Şərqi Zəngəzurda salınan və inşa edilən şəhərlər həm müasir, həm də funksional mərkəzlərə çevrilmişdir. Bu şəhərsalma sahəsində yeni yanaşma və yeni modeldir.

Şəhərsalma və memarlıq sahəsində atılan məqsədyönlü addımlar Azərbaycanın gələcək sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla yanaşı, ölkənin regional və beynəlxalq miqyasda rəqabət qabiliyyətliliyini artıracaqdır. Davamlı, ekoloji tarazlığa əsaslanan və insan yönümlü şəhər mühitinin formalaşdırılması Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə, eləcə də müasir urbanistika sahəsində qabaqcıl ölkələr sırasında yer almasına şərait yaradacaqdır.

2026-cı ildə Qarabağda yaşayış məntəqələrinin, ictimai binaların və sənaye obyektlərinin tikintisinin başa çatdırılması, minlərlə məcburi köçkünün doğma yurdlarına qayıdışı nəzərdə tutulur. İşğaldan azad olunmuş ərazilərdə çox qısa bir zamanda yüzlərlə yaşayış məntəqəsinin planlaşdırma sənədləri hazırlanıb və həmin ərazilərə əhalimizin qayıdışı davam edir. Ümumilikdə 12 şəhərin planlaşdırma sənədləri əsasında həmin şəhərlər yenidən qurulur.

2026-cı ilin “Memarlıq və Şəhərsalma İli” elan olunması rayonumuzda da sözün əsl mənasında təsir edəcək. Bildiyimiz kimi, 2025-ci ildə rayonumuzda Türk xalqlarının prezidentlərinin zirvə görüşü keçirildi. Bu görüş bir daha rayonumuzu dünyaya tanıtdı.

Qəbələ asfalt yolları və küçələri, möhtəşəm binaları, beynəlxalq aeroportu, dünya səviyyəli konqres salonu, beşulduzlu otelləri, yaraşıqlı parkları, idman meydançaları, istirahət mərkəzləri olan modern şəhərdir. Arxitekturası gündən-günə dəyişən və gözəlləşən müasir Qəbələ Azərbaycanın əsas turizm məkanlarından biri sayılır. Artıq rayonumuzun hər yerində bərpa quruculuq işləri gedir. Mərkəzi küçələrdə abadlıq işləri aparılır. Turistlərin hər gün daha da artması rayonumuzun necə inkişaf etdiyinin və günü-gündən gözəlləşdiyinin ən böyük nümunəsidir.

Şəhərsalma və memarlıq ənənələri insanların dünyagörüşünün və mədəniyyətinin formalaşdırılmasında önəmli rola malikdir. Memarlıq bir yaradıcılıq işi olmaqla yanaşı, həm də insanların həyatında və mədəniyyətlərin inkişafında, şəhər mühitinin formalaşmasında böyük əhəmiyyət kəsb edir.

Sonda Prezident İlham Əliyevin qeyd etdiyi kimi bildirmək istəyirəm ki, atılan bütün addımlar müasir, müstəqil, qalib Azərbaycanın gələcəyinə xeyli fayda gətirib. Prezident İlham Əliyevin Azərbaycanı qalib dövlətə çevirmək strategiyası və bacarığı gənc nəsil və gələcək nəsillər üçün nümunə olacaqdır. Azərbaycan Respublikası Prezident cənab İlham Əliyevin titanik fəaliyyəti ilə daha yüksək zirvələri fəth edəcəkdir.

**İlahə RƏHİMOVA,**
**“Qəbələ səsi”**

# Bakıda yeni kollektor şəbəkəsi qurulacaq

Dövlət Proqramının icrası nəticəsində paytaxt Bakı və Abşeron yarımadasında su təchizatı sahəsində tarixi əhəmiyyətli infrastruktur layihələri həyata keçiriləcək. Belə ki, proqram çərçivəsində tikiləcək yeni su anbarlarının sayı 30-a yaxın olacaq ki, bu da region üçün çox böyük, strateji əhəmiyyət daşıyan investisiyalardır. Hər bir anbar gələcək illərdə əhalinin fasiləsiz və keyfiyyətli içməli suya çıxışını təmin edəcək və su ehtiyatlarının daha səmərəli idarə olunmasına imkan yaradacaq. Layihə çərçivəsində sayğaclaşdırma sistemi də tam olaraq 100 faizə çatdırılacaq. Bu, həm əhalinin, həm də müəssisələrin istifadə etdiyi suyun dəqiq hesablanmasına, itkilərin qarşısının alınmasına və su resurslarının daha səmərəli istifadəsinə şərait yaradacaq. Hazırda fasiləsiz içməli su ilə təmin olunan əhali təxminən 70 faiz təşkil edir. Dövlət Proqramının icrası nəticəsində bu göstərici 95 faizə yüksələcək ki, bu da əhalinin böyük əksəriyyətinin fasiləsiz və etibarlı su ilə təmin olunması deməkdir.

Bakı, Sumqayıt, Abşeron rayonu və 64 yaşayış məntəqəsində su təchizatı sistemlərinin genişmiqyaslı yenidən qurulması da planlaşdırılır. Təxminən 200 kilometrdən çox magistral kanal və eyni qədər paylayıcı şəbəkə yenidən qurulacaq və modernləşdiriləcək. Bu, regionda su təminatının müasir standartlara uyğunlaşdırılmasını, şəhər və qəsəbələrdə əhalinin gündəlik həyatının asanlaşdırılmasını təmin edəcək. Dövlət Proqramı yalnız infrastrukturun yenilənməsini əhatə etmir. O, həm də əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə, şəhər və qəsəbələrdə sosial-iqtisadi inkişafın davamlı əsaslar üzərində qurulmasına və ekoloji tarazlığın qorunmasına xidmət edir. Uzunmüddətli perspektivdə bu layihələr, həmçinin urbanizasiya proseslərinin daha səmərəli idarə olunmasına, su ehtiyatlarının qorunmasına və regionun dayanıqlı inkişafına təkan verəcək.

Paytaxt Bakıda leysan yağışları yağan kimi şəhərdə həyat demək olar ki, dayanır. Küçələrdə nəqliyyat hərəkəti iflic olur, insanlar işinə gecikir, gündəlik iş və fəaliyyət planları pozulur. Prezident İlham Əliyev çıxışında bu məsələyə xüsusi diqqət çəkib və bildirib ki, “bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun”. Hazırda kanalizasiya xidməti yalnız əhalinin yarısına çatır, lakin Proqramın icrası ilə bu göstərici 95 faizə yüksələcək. Bundan başqa, yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq. Bu isə şəhərin əksər hissəsində yağış sularının effektiv idarə olunmasını təmin edəcək və eyni zamanda gündəlik həyatın rahatlaşmasına xidmət edəcək, daşqınların qarşısını alacaq və nəqliyyatın fasiləsiz hərəkətinə imkan yaradacaq.

**Azad MƏMMƏDOV,**
**“Qəbələ səsi”**

# Heç kəs unudulmur

**General-mayor, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Polad Həşimov**

Azərbaycan Respublikasının Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimov 2 yanvar 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub.

General-mayor Polad Həşimov iyulun 13-dən 14-ə keçən gecə Tovuz rayonu istiqamətində döyüş zamanı qəhrəmancasına şəhid olub.

İyulun 14-də general-mayor Polad Həşimovun nəşi əvvəlcə doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə, sonra yaşadığı Sumqayıt şəhərinə gətirilib və iyulun 15-i II Fəxri Xiyabanda dəfn olunub.

9 dekabr 2020-ci il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə ona Milli Qəhrəman adı verilib.

* * *

**Mayor Səmədov Xəyyam**

Səmədov Xəyyam Mirazim oğlu 16 yanvar 1986-cı ildə Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin mayoru olan Səmədov Xəyyam Mirazim oğlu Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhid olub. Qəbələ rayonu Mirzəbəyli kənd qəbiristanlığında dəfn edilib.

* * *

**Qəbələdə ən son dəfn olunan şəhid**

Qədirzadə Aqşin 10 mart 1999-cu ildə Qəbələ rayon Seyidqışlaq kəndində anadan olub.

Aqşin Qədirzadə 44 günlük Qarabağ döyüşlərində iştirak edib. Murovdağda gedən döyüşlər zamanı oktyabrın 4-də itkin düşüb. Oktyabrın 18-də şəhid xəbəri gəlmişdir. Dekabrın 18-də Qəbələ rayonunun Seyidqışlaq kəndində dəfn olunmuşdur.

# Hotel və mehmanxana tipli obyektlərin turizm fəaliyyəti

Qəbələ rayonu ərazisində cari ilin yanvar-dekabr aylarında 22 mehmanxana və mehmanxana tipli obyektdən 15-ci fəaliyyət göstərmişdir. 2025-ci ilin yanvar-dekabr aylarında hotel və mehmanxanalarda 25.369 çarpayı-yerdən istifadə olunmuşdur. Bir gün qalmaq üçün orta qiymət 123,8 manat təşkil etmiş və turistlərin qalma müddəti 1-2 gün olmuşdur. Hotel və mehmanxana tipli obyektlərə 95607 nəfər yerləşdirilmiş, onların 47252 nəfəri və ya 49,4 faizi Azərbaycan, 48355 nəfəri və ya 50,6 faizi xarici ölkə vətəndaşları olmuşdur.



Hotel və mehmanxana tipli obyektlərə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6.498 nəfər və ya 6,4 faiz azalmışdır. 2025-ci ilin yanvar-dekabr aylarında yerli turistlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 8.115 nəfər və ya 20,7 faiz artma, əcnəbi turistlərin sayında isə 14613 nəfər və ya 23,2 faiz azalma qeydə alınmışdır.

2025-ci ilin yanvar-dekabr aylarında rayona gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edərək 15830 nəfər olmuşdur. Bununla yanaşı Səudiyyə Ərəbistanından 10.030 nəfər, Birləşmiş Ərəb Əmirliyindən 6.084 nəfər, Pakistandan 3.138 nəfər, Israildan 1.964 nəfər, Küveytdən 1.601 nəfər, Qətərdən 1.191 nəfər, Rusiya Federasiyasından 844 nəfər, Omandan 401 nəfər, Özbəkistandan 368 nəfər, Türkiyədən 366 nəfər, ABŞ-dan 308 nəfər, Qazaxıstandan 281 nəfər, Böyük Britaniyadan 251 nəfər, Bəhreyndən 148 nəfər, Ukraynadan 127 nəfər, Yaponiyadan 124 nəfər, Çindən 103 nəfər digər ölkələrdən isə 5.196 nəfər turist gəlmişdir.

2025-ci ilin dekabr ayında turizm obyektlərində işçilərin orta sayı 1082 olmuşdur. Onlardan 290 nəfərini qadınlar, 58 nəfərini turizm və otelçilik ixtisası üzrə təhsil alan mütəxəssislər, 1 nəfərini isə əcnəbi işçi təşkil edib.

**Rayon statistika idarəsi.**